# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/29** **07 noyabr 2020-ci il**

**KPMG beynəlxalq şirkətlər şəbəkəsinin Azərbaycan Respublikasının ərazisində qeyri-qanuni fəaliyyətinin araşdırılması barədə**

Kütləvi informasiya vasitələrindən və auditor təşkilatlarından Azərbaycan Respublikasının Auditorlar Palatasına daxil olmuş KPMG beynəlxalq şirkətlər şəbəkəsinin ölkəmizdə qeyri-qanuni və keyfiyyətsiz fəaliyyət göstərməsinə dair məlumatların araşdırılması məqsədilə **qərara alıram:**

1. KPMG beynəlxalq şirkətlər şəbəkəsinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyət göstərməsinə və işğal olunmuş ərazilərdə yerləşən təbii sərvətlərin talan edilməsi ilə məşğul olan şirkətlərin, o cümlədən bankların və digər qurumların auditinin aparılması barədə daxil olmuş məlumatları araşdırmaq və zəruri tədbirlər görülməsi məqsədilə tövsiyələrin işlənib hazırlanması üçün Azərbaycan Respublikasının Auditorlar Palatasında aşağıdakı tərkibdə komissiya yaradılsın:

***Komissiyanın sədri***

Elnur İbrahimov – Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin sədr müavini, sərbəst auditor

***Komissiyanın üzvləri:***

Altay Cəfərov – Auditorlar Palatası Şurasının üzvü; sərbəst auditor;

Nəcəf Talıbov – Auditorlar Palatasının Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri;

Səbuhi Gülməmmədov – Auditorlar Palatasının icraçı direktoru;

Vəli Kərimov – Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin sədri, sərbəst auditor.

2. Komissiyaya tapşırılsın ki, bu məsələ ilə əlaqədar Auditorlar Palatasında 2020-ci il 7 noyabr tarixində keçirilmiş onlayn müzakirənin yekunları da nəzərə alınmaqla bir həftə müddətində KPMG şirkətlər şəbəkəsinin Azərbaycan Respublikasının ərazisində fəaliyyətinin nəticələri və qanunauyğunluğu araşdırılsın və müvafiq təkliflərin təqdim edilməsi təmin edilisin.

**Palatanın sədri** **Vahid Novruzov**